# BAKI ŞƏHƏR GƏNCLƏR VƏ İDMAN BAŞ İDARƏSİ

Bakı Şəhər Gənclər və İdman Baş idarəsinin əsas vəzifə və funksiyaları aşağıdakılardır:

- Gənc nəsli ölkənin sosial, iqtisadi, mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun tərbiyə etmək;
- Yeniyetmə və gənclərlə iş, bədən tərbiyəsi və idman sahələrində cəmiyyətin demokratik inkişafının tələblərinə cavab verən siyasəti həyata keçirmək;
- Şəhər daxilində yeniyetmə və gənclər siyasətinin həyata keçirilməsinə, bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsinə dair hazırlanmış Dövlət Proqramlarının icrasını təmin etmək;
- İdman növləri üzrə Bakı şəhər yarışlarının keçirilməsini təmin etmək;
- İdman növləri üzrə şəhər komandalarının hazırlığını təşkil və onların respublika yarışlarında iştirakını təmin etmək;
- İdman növləri üzrə şəhər rekordlarının təsdiq olunması, müvafiq idman dərəcələrinin verilməsi və digər ali dərəcələrin verilməsi ilə bağlı müvafiq təşkilatlar qarışısında vəsadətin qaldırılmasını təmin etmək;
- Gənc nəslin yaradıcılıq potensialını, qüvvəsini, bilik və bacarığını milli dövlət quruculuğuna, iqtisadi və sosial inkişaf proqramlarının həyata keçirilməsinə yönəltmək;
- Şəhər ərazisində gənclər təşkilatlarının, idman federasiyalarının, digər gənclər, bədən tərbiyəsi və idman birliklərinin fəaliyyətini əlaqələndirmək;
- Gənclərlə iş, bədən tərbiyəsi və idman sahələrində xarici ölkələrlə əməkdaşlıq əlaqələrinin qurulması işində və onların inkişaf etdirilməsində iştirak etmək;
- Şəhərdə bədən tərbiyəsi və idmanın təşviqini və təbliğini təmin etmək
- İşləyən gənclərin və yeniyetmələrin hüquqlarının qorunması istiqamətində işlərin aparılması;
- Yeniyetmə və gəncləri milli adət-ənənələrə zidd olan əməllərdən uzaqlaşdıraraq sağlam həyat tərzinə uyğun tərbiyə etmək;
- Əhalinin sağlam həyat tərzinə cəlb olunmasını təmin etmək;
- Şəhid, aztəminatlı və valideyn himayəsindən məhrum olmuş yeniyetmə və gənclərin problemlərinin öyrənilməsi və onların həlli istiqamətində işlərin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**Qeyd**: Baş İdarənin Bakı şəhərinin 11 rayonunda müvafiq yerli qurumları (Rayon Gənclər və İdman İdarələri) mövcuddur.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Səbail rayonu Adil Babayev küçəsi 5

**Əlaqə telefonları:** /012/ 497-57-59, 497-02-67; **Faks:** /012/ 497-32-03

**Web sayt:** www.dysbaku.az **e-mail:** bakigibi@mys.azw